UOT 94(470) "16/18"

# XIX ƏSRİN 30-cu İLLƏRİNDƏ POLŞA ÇARLIĞININ MİLLİ MÜBARİZƏ MƏRKƏZİNƏ ÇEVRİLMƏSİ

**Z.N.NURİYEVA**
***Bakı Dövlət Universiteti***
***nuriyevazoya@mail.ru***

*Məqalə XIX əsrin əvvəllərində Polşa xalqının milli azadlıq hərəkatına həsr olunmuşdur. Bu dövrdə milli müstəqillik uğrunda xalq kütlələrinin mübarizəsi daha da genişlənir. Azadlıq mübarizəsi aparan gizli təşkilatlar yaranır, vətəndən kənarda yaşayan Polşa mühacirlərinin müstəqillik mübarizəsinə təsiri güclənirdi. Sosial, siyasi, milli zülmdən narazı olan polyak xalqının apardığı inadlı mübarizə beynəlxalq əhəmiyyətə malik olmuşdur.*

**Açar sözlər:** vətənpərvərlik, bərpa dövrü, vuruşma, inqilabi mübarizə, müstəqil

XIX əsrin əvvəllərində baş verən tarixi hadisələr polyak xalqının öz tabeliyini həll etmək məsələsini daha da mürəkkəbləşdirdi. Belə ki, Polşa yenə də mübarizə obyektinə çevrildi. Məlumdur ki, Polşa torpaqlarının irticaçı dövlətlər tərəfindən bir neçə dəfə bölüşdürülməsi polyak xalqının milli mənafeyinin tapdalanmasına səbəb olmuş, onun müstəqilliyinə ağır zərbə endirmişdi. Uzun müddət rus çarizminin müstəmləkə boyunduruğuna düşmüş polyak xalqının mübarizəsi milli azadlıq hərəkatı tarixinin yeni bir səhifəsini təşkil edir. Siyasi, iqtisadi cəhətdən Rusiya imperiyasının tərkib hissəsi olmuş Polşa milli azadlıq hərəkatının əsas tələbi müstəqilliyini bərpa etmək və bütün Polşa torpaqlarını birləşdirməkdən ibarət olmuşdu. Polşa xalqı yadelli zülmündən qurtarmaq üçün çətin mübarizə yolu keçməli olmuşdur.

Polşa məsələsinin həllində çar hökumətinin müvəffəqiyyət əldə etməsinə Rusiyanın Vyana konqresində möhkəm mövqe tutması, Napoleon ordusunun darmadağın edilməsində başlıca rol oynaması, dövlətlər arasında baş verən ziddiyyətlərdən məharətlə istifadə etməsi və s. səbəblər olmuşdu. Napoleonun məğlubiyyətindən sonra Polşa torpaqlarının siyasi cəhətdən dağınıq vəziyyətdə qalması onun iqtisadi inkişafına da mənfi təsir göstərmişdi. Bu dövrdən etibarən I Aleksandır liberal oyununu kənara qoyaraq çarizm tərəfindən dəfələrlə sınanılmış ənənəvi açıq irticaçılıq siyasətinə keçdi. Çarizm Polşaya verilmiş konstitusiya qanununu pozarkən özünün əsas müttəfiqi olan ali zadəgan qrupları ilə möhkəm ittifaq yaradırdı. Kontinental blokada, müharibələr,

mülklərin dağıdılması kəndlilərin var–yoxdan çıxması kənd təsərrüfatına ağır zərbə endirmişdi. Ölkədə iqtisadi vəziyyətin pisləşməsi əhali içərisində geniş narazılığa səbəb olmuş və kəndlilərin kütləvi surətdə torpaqdan qovulmasını sürətləndirmişdir (1, 176; 9, 205).

XIX əsrin 30-cu illərini əhatə edən dövr həm də Polşanın sosial–iqtisadi inkişafında əsas mərhələ olmuşdur. Məhz bu dövrdə ilkin kapital yığımı prosesi genişlənir, fəhlə qüvvəsinin sayı artır, tədricən polyak burjuaziyası formalaşmağa başlayır, sənaye çevrilişi üçün şərait yaranırdı. Polşada kapitalizmin inkişafı iqtisadiyyatla bərabər, ictimai fikrin inkişafı, ideya mübarizəsi, inqilabi milli əhval–ruhiyyəyə də təsir göstərirdi. Eyni zamanda baş verən Fransa, belçika inqilabları da polşa mübarizlərini azadlıq uğrunda mübarizəyə ruhlandırırdı (2, 230; 3, 118). Polşanın siyasi həyatında avropanın bir çox ölkələrində olduğu kimi din, millətçilik sosializm istiqamətləri cərəyan edir, azadlıq mübarizəsi aparan gizli təşkilatlar yaranırdı. Xalq gizli cəmiyyətlərdə özünə sığınacaq, dayaq tapırdı. Bu zəmin üzərində də gizli cəmiyyətlər öz fəaliyyət dairələrini genişləndirirdilər. «Vətənpərvərlik cəmiyyəti»nin fəaliyyəti yenidən canlanır, silahlı üsyana hazırlığı planlaşdıran gizli hərbi cəmiyyətlər də yaradılırdı (5, 416). Azadlıq hərəkatına liberal şlyaxta və burjua dairələri içərisindən başçılıq etməyə can atırdılar. İnqilabdan uzaq olan, lakin ictimai fikrin formalaşmasına nail olmağa cəhd göstərən gizli tələbə cəmiyyətləri və polyak ordusunun zabitləri arasında gizli təşkilatlar da meydana gəlirdi. Həmin təşkilatlar içərisində V.Xeltman, M.Moxnatski, Ş.Qoşinski, tanınmış inqilabçı şair A.Mitskevic kimi azadlıq hərəkatının nümayəndələri yetişirdi (16, 324; 1, 178).

1828-ci ilin dekabrında Varşavada Konstantinin iqamətgahına yaxın zabitlər məktəbində təşkilatçısı həmin məktəbin təlimatçısı olan Pyotr Vısotski tərəfindən gizli cəmiyyət yaranır. Tərkibinə Zalivski, A.Qurovski, Dzyalinski, B.Pototski və b. daxil olan bu cəmiyyət dövlət çevrilişinə hazırlaşarkən belə hesab edirdi ki, inqilab vasitəsilə hakimiyyəti ələ almaq olar, bu şərtlə ki, müstəqilliyin bərpası uğrunda çarizmə qarşı silahlı mübarizənin rəhbərliyi həmin cəmiyyətə tabe edilsin. Cəmiyyətin sol qanadını təşkil edən demokratik ziyalılar respublika quruluşunun tərəfdarı kimi çıxış edərək hərbi inqilabi diktaturanın zəruriliyini bildirirdilər. Lakin bu cəmiyyət geniş şlyaxta dairəsində özünə dayaq tapa bilmədi. Onun üzvlərinin əksəriyyəti istənilən ictimai dəyişikliklər etmək planından azad olduğu üçün inqilabi əhvali-ruhiyyədə olan xırda burjuaziya, şəhər əhalisi və kəndlilərlə əlaqə yaratmaq istəmirdilər. Cəmiyyətin üzvləri içərisində Vilen universitetinin keçmiş professoru, polyak xalqının tarixini tədqiq edən, eyni zamanda gənclərin sevimlisi, tələbə dərnəyinin ideya ilhamçısı İoaxim Lelevel xalq kütlələrinin yoxsullaşmasının günahını aristokratiya və şlyaxtanın tutduğu mövqedə görür və silahlı üsyan yolu ilə Polşanın respublika elan edilməsinə inanırdı (12, 126).

Uzun fasilədən sonra 1830-cu il mayın 28-də dördüncü seymin açılışında heç nə əldə edilə bilməyəcəyini başa düşən Vısotski dərnəyin fəaliyyətini gücləndirməyi qərara alır. İnqilabçı qüvvələr əsas etibarilə Lelevilin (tələbələr), Vısotçkinin (kiçik zabitlər) və Zalivskinin ətrafında cəmləşməyə başladı-

lar (16, 326). Fransada baş verən inqilab sədasının Polşaya çatması 1830-cu ilin avqustunda gizli cəmiyyətlərin fəallaşmasına təkan verdi. Lakin avqustun 12-də çağırılmış yığıncaqda bir neçə general və böyük mənsəb sahibləri üsyana qoşulmaqda tərəddüd etdilər. Bunu görən inqilabçı qüvvələr ordu içərisində geniş təbliğat işi aparmağa başladılar. Nəticədə tezliklə Varşava qarnizonun rəhbərləri və general P.Urbanski, podpolkovnik Paşkoviç üsyanda iştirak edəcəklərini bildirdilər. Artıq şlyaxta, sənətkar, tələbələr, universitet müəllimləri, seym üzvlərinin çox hissəsi, bir neçə general inqilabi hərəkatda iştirak edəcəklərinə razılıq verdilər. Sentyabrdakı yığıncaqda Vısotski və Zalivski hərəkatın rəhbəri təyin edildilər (16, 327). Zalivski fransadan kömək alacağına ümid bəsləyərək Polşanın bütün torpaqlarında üç qarətçi dövlətə qarşı eyni zamanda mübarizəyə başlayacağını arzulayırdı. Vısotski isə belə hesab edirdi ki, üsyan ilk növbətə Varşavada başlanmalıdı. Nəticədə zabitlər və hərbi məktəbin tələbələri tərəfindən irəli sürülən və Vısotskinin hazırladığı hücum planı qəbul edildi, əməliyyatın yerinə yetirilməsi oktyabrın 20-nə təyin edildi (13, 43; 2, 229). Beləliklə I Nikolayın antipolyak siyasəti azadlıq hərəkatının genişlənməsinə səbəb oldu. Hələ bir necə il əvvəl Polşada üsyana hazırlıq gedirdi və nəhayət 1829-cu ildə Varşavadakı podxorunjix məktəbində yaradılan polşa zabitlərinin təşkilatı təşəbbüsü öz əlinə aldı. 1930-cu ildə «Podxorunjilər qəsdi» adlı gizli cəmiyyətdə zabitlərlə yanaşı, ziyalılar və tələbələr də iştirak edirdi. Şəhərdə milli qvardiya dəstələri təşkil olunur, gizli hərbi şlyaxta cəmiyyətinin təşəbbüsü ilə başlanan hərəkata xalq kütləsinin minlərlə müxtəlif təbəqələri də qoşulurdular (6, 536).

Üsyanın başlanması bir çox səbəblərlə izah olunur. Belçikada inqilabi hərəkatı yatırmaq üçün I Nikolayın Polşa Çarlığında səfərbərlik həyata keçirmək istəməsi barədə şayələrin yayılması ilə əlaqələndirilir. Digər tərəfdən zorla suveren Polşa dövlətinin ləğv edilməsi ilə Polşa feodal respublikasının Reç Pospolitanın irticaçı monarxlar tərəfindən bölüşdürülməsi və parçalanmış torpaqlarda feodal – təhkimçilik münasibətlərinin böhranının kəskinləşməsi ilə əlaqədar idi. Polyakların bir xalq kimi varlığını qoruyub saxlamaq, sonra da öz dövlətini bərpa etmək uğrundakı mübarizəsi bu və ya başqa vasitələrlə ölkədə təhkimçilik qaydalarına qarşı çevrilmiş mübarizə ilə qovuşmuşdu. Çarizmin ağalığına qarşı Vısotskinin başçılığı ilə gizli hərbi syaxta cəmiyyətinin təşəbbüsü ilə Varşavada başlanmış milli azadlıq üsyanı Litva, Qərbi Belorusiya və Sağsahil Ukraynasına da yayılmışdı. Polşa seyminin yaratdığı üsyançı hökumətə («Jond narodovı») başçılıq edən aristokratiya və şlyaxta nümayəndələri Polşa və Litva krallığı ərazisini Ukrayna və Belorusiya torpaqları hesabına genişləndirmək məqsədi güdürdülər. Ön plana çəkilən bu tələb qarşıya qoyulan digər məsələləri məhdudlaşdırmış oldu (11, 246; 2, 230).

1930-cu il noyabr ayının 29-da silahlı dəstələr Belveder sarayına hücum etdilər və 30 noyabrda Varşava üsyançıların əlinə keçdi (1, 175). Çar məmurları şəhəri tərk etdilər. Üsyan rəhbərliyinin təcrübəsizliyindən, mübarizənin dəqiq planı və proqramının olmamasından istifadə edən aristokratiya başda Adam Cartoriyski olmaqla rəhbərliyi ələ aldı (16, 330). O, ölkədə maqnatların

ağalığını saxlamaqla çarla əlaqə yaratmağa ümid bəsləyərək xalq hərəkatının qarşısını almağa cəhd edirdi. Yaranmış vəziyyətdən mötədil qüvvələr konstitusiyaya əməl olunmasını təmin etməklə kifayətlənir və şlyaxtanın yuxarı təbəqələri knyaz Konstantinlə danışıqlar aparmaq istəyirdilər. Lakin üsyanın başlanmasından sonra Varşavada yaradılmış Vətənpərvərlik klubu aristokratların siyasətinə qarşı çıxdı və danışıqlar dayandırıldı (16, 331). Nümayişin təsiri nəticəsində 1830-cu il dekabrın 4-də 7 nəfərdən ibarət Müvəqqəti hökumət yarandı. Lakin çox zəif olan bu hökumət cəmi iki gün yaşadı. 1830-cu il dekabrın 18-də Seym üsyanı ümummilli adlandırdı. I Nikolay dekabrın 24-də üsyançıların danışıqsız təslim olması haqqında Manifest verdi. Bu xəbər inqilabçı kütlə içərisində ciddi həyəcana səbəb oldu. Elə həmin günü Vətənpərvərlik klubunun təşəbbüsü ilə edam edilmiş dekabristlərin şərəfinə I Nikolayın taxtdan salınması tələbi ilə nümayiş keçirildi. Kütlənin təzyiqindən məcburiyyət qarşısında qalan Seym 1831-ci il yanvarın 25-də I Nikolayın taxtdan salınması haqqında aktı imzaladı. Bu qərarın qəbul edilməsi, çarizmlə müharibənin labüd olmasını, Seymin Nikolaya müharibə elan etməsini təsdiq etmiş oldu. Artıq şəhər əhalisi də üsyana qoşuldu. Lakin Polşa aristokratiyasının hərəkata qoşulan nümayəndələri inqilabdan qorxaraq dinc razılığa gəlməyə çalışırdılar (1,176; 16,330). Xlopitski 1831-ci ilin yanvar ayında istefa verdi. Bundan sonra hakimiyyət başda aristokrat knyaz A.Cartoriyski olmaqla İnzibati Şuranın əlinə keçdi və mühafizəkar hökumət yaradıldı (16, 333).

1831-ci ilin yanvarında üsyan özünün ikinci mərhələsinə daxil olur. Varşava üsyanı ilə əlaqədar olaraq ölkənin ayrı–ayrı yerlərində kəndli həyəcanları da başlayırdı. Bu zaman Vətənpərvərlik cəmiyyətində yenidən fəaliyyətə başlayan radikallar ilk növbədə kəndli məsələsinin həllini irəli sürdülər. Lakin onların tələbləri məhdud xarakter daşıyırdı, çünki yalnız əsgəri xidmətdə olan kəndlilərə torpaq verilməsi nəzərdə tutulmuşdu. Həmin ilin yazında orduya çağırış zamanı kəndlilərin narazılığı daha da artdı. Bütün kəndli çıxışları mülkədarların özbaşınalığından və təhkimçilik qaydalarının hədsiz ağır olmasından irəli gəlirdi (5, 449; 1, 178).

1831-ci il fevral ayının əvvəllərində İ.Paskeviçin başçılığı ilə rus qoşunu üsyançılara qarşı yeridi. Lakin üsyançılar Qroxov altında rus ordusunun qarşısını aldılar. Üsyanı yatırmağa gedən güclü çar ordusu Ostrolenke yanında ağır məğlubiyyətə uğradı. Xalq kütlələrinin fəal çıxışından qorxan dairələr Vətənpərvərlik cəmiyyətini buraxır və xalqı çar ordusuna qarşı silahlandırmaqdan imtina etdi. General Y.Krukovetski İ.Paskeviclə danışıqlara getmək istədiyinə görə vəzifəsindən uzaqlaşdırıldı. Buna baxmayaraq may ayının sonunda müvəffəqiyyətsizliyə uğrayan üsyançılar Ostrolenko altında məğlub olduqdan sonra Varşavaya döndülər. 1831-ci il avqustun 15-də Vətənpərvərlik cəmiyyətinin iclası toplandı. Xalq cəmiyyətdən rəhbərlik, hərəkət planı gözləyirdi, cəmiyyət isə artıq kütləyə başçılıq etmək iqtidarında deyildi. Avqustun 17-də isə Seymin qəbul etmiş olduğu qərara əsasən xalq hakimiyyəti hökumətin əlinə keçdi. Seym isə yalnız sazişlər, müqavilələr bağlamaq hüququnu əlində saxlamışdı. Seymin mütərəqqi tədbirlər, o cümlədən aqrar islahat keçirməkdən

imtina etməsi xalqın geniş dairəsini, kütləni üsyandan uzaqlaşdırdı, nəticədə üsyan məğlub oldu. 1815-ci il Konstitusiyası, Seym və Polşa ordusu ləğv edildi. Vətənpərvərlik cəmiyyətinin ətrafında qruplaşan demokratik qüvvələrin (liderləri İ.Lelevel, K.Bronikovski, M.Moxnatski) xalq kütlələrinə təsiri zəif idi. Çar ordusu ilə uğursuzluğun başlıca səbəbi üsyanda rəhbər rol oynayan şlyaxta çarizmlə mübarizəni xalq mübarizəsinə çevirə bilmədi. Polşa kəndliləri şlyaxta Seymindən heç bir kömək görmədiyi halda hərəkata zəif münasibət bəsləyirdi (2, 229; 16, 331).

Nəhayət, sentyabr ayının 8-də Varşava alındı. Noyabr üsyanın on ay davam etməsinə baxmayaraq onun Avropa və Polşa üçün böyük əhəmiyyəti olmuşdur. 1831-ci ilin dekabrında Polşa Milli Komitəsi yaradılır. 30-cu illərin sonlarında bir çox təşkilatların fəaliyyətini dayandırıb iştirakçılarını da həbs etmələrinə baxmayaraq, üsyanın məğlubiyyətindən sonra milli azadlıq hərəkatının yeni mübarizə proqramı hazırlanırdı. Avropaya getmiş polşa ziyalı mühacirlərindən İ.Lelevel, A.Mitskevic, F.Şopen və b. müstəqilliyin bərpası məsələsi narahat edirdi (1, 180; 15, 123). 1832-ci ildə yaranan Polşa demokratik cəmiyyəti öz proqramında müstəqilliyin üsyan yolu ilə əldə edilməsində görürdü. Ən çox sayılan və başqa təşkilatlardan fərqlənən bu cəmiyyət mühacir nəşrlərinin ölkədə yayılmasında daha fəal idi. Lelevelin əməkdaşı olan Simon Konarskinin ümumpolşa təşkilatının yadellilərdən azad olmasında xüsusi rolu olmuşdur. Rəhbəri inqilabçı, utopik–sosialist və 1830-cu il üsyanının iştirakçısı S.Vorcel olan demokratik cəmiyyətin sol qanadını təşkil edən Polşa xalq təşkilatı daha qəti tələblər irəli sürürdülər (6, 202).

30-cu illərin sonlarına doğru azadlıq mübarizəsi aparan gizli cəmiyyətlərin fəaliyyəti getdikcə daha da aktivləşirdi. Polşa çarlığında «Polşa xalq birliyi», «Kəndli ittifaqı»nın üzvləri, sənətkarlar, kəndlilər, fəhlələr, şlyaxta dairəsindən çıxanlar, ziyalı nümayəndələri və b. demokratik Polşa uğrunda mübarizə tələbi ilə çıxış edirdilər. Onlar Demokratik cəmiyyətlə əlaqə yaradaraq ümumpolşa üsyanının planını hazırlayırdılar (7, 537). Bu işdə onlara avropada baş verən inqilabların da köməyi olurdu. Böyük vətənpərvər olan Lelevel mühacirət illərində də avropa və rus inqilabçıları ilə siyasi əlaqə yaradırdı. Məğlubiyyətdən sonra üsyanın yenidən hazırlanması təşəbbüsünə başlayan milli-azadlıq hərəkatının yeni nəslinin nümayəndələri içərisində inqilabçı – demokrat E.Dembovskinin rolu böyük olmuşdur (12, 98). Polşa üsyanı milli-azadlıq hərəkatının çarizm üçün təhlükəli təzahürü idi. Bu üsyan 1815-ci ildə polyaklara Konstitusiya «verən» sonra isə müntəzəm surətdə onu pozan çarizmin ikiüzlü siyasətinə qarşı hazırlanmışdı. Polşa azadlıq hərəkatının ən fəal təbəqəsini orta və iri şlyaxta təşkil edir, sonralar isə qeyri-leqal təşkilatların sosial tərkibi demokratikləşməyə başlayır, kiçik məmurlar, kəndlilər, ziyalılar, hərbiçilər, inqilabi dərnəklərdə birləşirdi. Azadlıq mübarizəsi şlyaxtanın inqilabiləşməsi prosesini də sürətləndirmişdi (10, 213).

1830-1831-ci illər Polşa üsyanı Çar Rusiyasına məxsus polyak torpaqlarında çarizmin ağalığına qarşı milli-azadlıq hərəkatı idi. Üsyanın məğlubiyyətindən sonra I Nikolay hərbi diktatura siyasəti keçirir. Üsyan iştirakçıları

sürgün edilir, həbsxanalara salınırdı. Elmi mərkəzlər və ali tədris müəssisələri, Kremenski liseyi, Vilen universiteti bağlanmış, məktəblər Peterburq Təhsil Nazirliyinə verilir, müəssisələrdə rus dili tədris olunurdu (5, 183; 10, 49). 90 min ailə Rusiyanın dərinliklərinə köçürülmüş, çoxlu sayda katolik kilsəsi ləğv edilmişdi. Polşa ordusu ləğv edildikdən sonra 1833-cü ildə Polşa çarlığında hərbi vəziyyət tətbiq edildi və polyak əsgərləri rus ordusunda xidmətə keçirildi (14, 18). Eyni zamanda 100 min rus ordusu Polşa ərazisində saxlanıldı. Çarlığın ərazisi imperiyaya daxil edildi. Amma bir çox inzibati idarələr saxlanılmaqla 1832-ci ildə Təbii Statut qəbul edildi.

1830-1831-ci illər üsyanından sonra onun iştirakçılarından çoxu mühacir edildi. 1836-cı ildə Qərbdə 9 mindən çox adam mühacir həyatı keçirirdi. Avropa ölkələrində olan çoxsaylı Polşa mühacirləri siyasi qruplaşmalar yaradır, parçalanmış Polşa ərazisində yaşayanlara təsir göstərir, milli özünüdərk ideyasını formalaşdırır, ideya mübarizəsini canlandırır, kəndli məsələsinin həllini ön plana çəkirdilər (14, 199; 16, 331). Üsyanın rəhbərliyini öz əlinə almış aristokrat – şlyaxta elmentləri Polşanın azadlığını məhv etdilər, bütün xalqı hərəkata qaldırmağa qorxdular (8, 112). Vətənpərvərlik cəmiyyətinin ətrafında qruplaşan demokratik qüvvələrin də xalq kütlələrinə təsiri zəif olmuş, bir növ gözləmə taktikasına üstünlük vermiş, mütərəqqi tədbirlər, aqrar islahatlar keçirilməsindən imtina etməklə geniş xalq dairələrini üsyandan uzaqlaşdırmışdır (14, 112; 15, 331). Lakin üsyanın məğlubiyyəti xalqın azadlıq ideyalarını tam məhv edə bilmədi.

Beynəlxalq əhəmiyyətə malik olan Polşa üsyanı çarizmə, onun müttəfiqləri olan Prusiya və Avstriyaya zərbə endirməklə avropaya qarşı hazırlanan silahlı müdaxilə, beynəlxalq təcavüz planlarını pozdu, Avropa inqilablarının yatırılmasında onun əl–qolunu bağladı. Muxtariyyət verilmiş Varşava hersoqluğunda ruslaşdırılma siyasətinə qarşı xalqın nifrəti daha da güclənirdi. Polşa üsyanı dekabristlər hərəkatından sonra avropa irticasının dayağı olan çarizmə – müqəddəs ittifaqa böyük zərbə vurmuş oldu. Birləşmiş slavyan cəmiyyətinin həm də Tulçində fəaliyyət göstərən dekabristlərin bir çoxu Polşa üsyanında bilavasitə iştirak etmişdir (4, 319; 10, 129). XIX əsrin ortaları və II yarısında slavyan komitələrinin təşkilində Polşa inqilablarının göstərdiyi fəaliyyət buna misal ola bilər. Sonrakı illərdə də vaxtaşırı çıxışlar, üsyan qığılcımları görünürdü. Beynəlmiləlçilik, bir əqidə uğrunda mübarizə müxtəlif xalqların nümayəndələrinə qarşılıqlı təsir göstərirdi. Polşa-Rusiya inqilabı əlaqələri getdikcə genişlənirdi.

## ƏDƏBİYYAT

1. Дыбковская А., Жарын М., Жарын Я. История Польши. С древнейших времен до наших дней. Варшава: Научное издательство ПВН.1995, 406 с.
2. Всемирная история. т.VI. М.: Социально-экономическая литература. 1959, 831 с.
3. Дьяков В.А. Исследования по истории польского общественного движения XIX в. – начала XX в. М.: Наука, 1971, 400 с.
4. Дьяков В.А. Очерки революционных связей народов России и Польши.1815-1917, М.: Наука, 1976, 602 с.
5. История Польши. В 3–х т., т. II, М., АН ССР, 1955, 711 с.

6. История южных и западных славян. В 2 т, Т.1, М.: МГУ, 2001, 687 с.
7. История южных и западных славян. В 2 т, Т.1, М.: МГУ, 2008, 686 с.
8. Обушенкова Л.А. Влияние польского национально – освободительного движения на развитие национального самосознания (конец XVIII – 60-е годы XIX в.). М.: Наука, 1974, 211 с.
9. Обушенкова Л.А. Королевство Польское в 1815-1830 гг. Экономическое и социальное развитие. М.: Наука, 1979, 295 с.
10. Ольшанский П.Н. Декабристы и польское национально–освободительное движение. М.: Соцэкгиз, 1959, 226 с.
11. Орлов А.С., Полунов А.Ю., Терещенко Н.Я. Основы курса истории России. М.: Простор, 2006, 639 с.
12. Пенков Б.С. Иохим Лелевель об оценке польских и русских современников. М.: Соцэкгиз. 1966, 192 с.
13. Писаревский Г.Г. К истории польской революции 1830 г. Баку: АзГНИИ 1930, 80 с.
14. Польша на путях развития и утверждения капитализма. Конец XVIII – 60-е годы XIX в. М.: Наука, 1984, 295 с.
15. Польское освободительное движение XIX–XX вв. и проблемы истории культуры. М.: Наука, 1966, 240 с.
16. Россия. История XIX века. М.: Новь. 1998, 544 с.

## ПРЕВРАЩЕНИЕ ЦАРСТВА ПОЛЬСКОГО В ЦЕНТР НАЦИОНАЛЬНОЙ БОРЬБЫ В 30-е ГОДЫ XIX ВЕКА

**З.Н.НУРИЕВА**

**РЕЗЮМЕ**

Статья полностью посвящена национально – освободительному движению польского народа в начале XIX века. В этот период расширяется участие народных масс в движении за национальную независимость. На движение в Царстве Польском большое влияние оказывали польские патриотические кружки, а также польские эмигранты. Польский вопрос рассматривался не только как внутренняя проблема польского народа, он долгое время оставался в центре внимания ведущих европейских государств.

**Ключевые слова:** патриотический, восстановительный период, революционная борьба, сражение, независимый

## TRANSFORMATION OF POLISH TSARISM INTO THE CENTER OF NATIONAL STRUGGLE IN THE 30S OF THE XIX CENTURY

**Z.N.NURIYEVA**

**SUMMARY**

The article deals with the national liberation struggle of the Polish people at the beginning of the XX century. Secret organizations struggling for freedom were established, the influence of Polish migrants living outside the country to the struggle for independence increased. The persistent struggle of the Polish people, dissatisfied with social, political, national oppression had international significance, the participation of national masses at the struggle for national liberation expanded during this period.

**Key words**: patriotism, period of recovery, fighting, revolutionary struggle, independent